Şirin yuxudan dəng elə yarı, gecə yarı,
Xoş sözlə oyat nazlı nigarı,gecə yarı.

Yoxsa tanımır eşq yolun ki,yola gəlsin,
Etdim yolu yarı ona sarı,gecə yarı.

Gündüzləri hicrin çəkərəm,ay qəmər üzlüm,
Xoşbəxtliyi qismət edə Tarı,gecə yarı.

Bilməm niyə fəryadımı Allah gecə xoşlur,
Ya bəxş eləyib Müşviqətarı,gecə yarı?!

Bəxtim mənə du verdi dübarə, səhər-axşam,
Göstərdi mənə pənc ü cəharı,gecə yarı.

Bir yarə könül vermişəm, insanlığı ali,
Donmuş ürəyə saldı baharı,gecə yarı.



Mehdi,bu səadətlə sənə uyqu haramdır,
Şirin yuxudan dəng elə yarı,gecə yarı.

***

Taqətim qalmadı canda,ölürəm həsrətdən,
Sevgilim gəl daha,qurtar məni bu halətdən.

Qurudub gözlərimin yaşını çıxdın getdin,
Qalmadı damcı piyaləmdə,axan şərbətdən.

Atsalar yüz yol əgər,daş quyulardan çıxaram,
Bəxtimə çıxsa Züleyxa kimi bir afətdən.

Razıyam boynumu zəncirə salıb gəzdirsən,
Çün ki,divanə keçər nura çıxan zülmətdən.

Gəl əyağın izinə üz qoyum,eylim səcdə,
Keçmərəm,lə'l ola hər daş-kəsəyi,qürbətdən.

Neçə Adəm bu yolu tutdu,gər olsam adəm,
Keçərəm mən sənin eşqində yenə cənnətdən.

Çün baban yeddi bəşərzadə əlindən tutdu,
Tut əlimdən yenə Mehdi, qoy ola adətdən.

**Mehdi Ağa**

**Səhifəni hazırladı: Tural Turan**